1_Layout 1 29.04.2024 15:59 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 8 (672)

30 aprel 2024-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# SÜLH ÜÇÜN MÜHÜM TARİXİ ŞƏRAİT YETİŞİB

## Ermənistan bundan istifadə etməzsə, yalnız özünə zərbə vuracaq

**"Azərbaycan" qəzetinin müxbiri Yasəmən Musayevanın müəllifi olduğu "Sülh üçün mühüm tarixi şərait yetişib" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq oxucularımıza təqdim edirik.**

"Biz sülhü müharibə ilə gətirdik. Bu da bir seçimdir və bunun mümkün olduğunu nümayiş etdiririk"



Aprelin 23-də "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda Prezident İlham Əliyevin tədbir iştirakçılarının suallarını cavablandırarkən vurğuladığı kimi, Azərbaycanın İkinci Qarabağ müharibəsində zəfər çalması və ardınca suverenliyini tam bərpa etməsi regionda dayanıqlı sülhə də birbaşa rəvac verib.

Cəmi üç il ərzində ölkəmizin qazandığı ardıcıl qələbələr həm də illərdir dünyada davam edən bu tip münaqişələrin həll olunması baxımından mükəmməl Azərbaycan nümunəsini ortaya qoydu. Sübut edildi ki, bir halda ki, problem danışıqlar vasitəsilə çözülə bilmir, o zaman güc variantını seçmək qaçılmazdır və Azərbaycan da iki ölkə arasında 28 illik nəticəsiz danışıqları bu yolla sonlandırdı.

Bununla da, nəhayət ki, Cənubi Qafqazda sülh üçün zəmin yarandı, iki ölkə arasında normallaşma istiqamətində real addımlar atıldı. Qazax rayonunun 4 kəndinin azad edilməsi ilə delimitasiya proseslərinə başlanılması, iki ölkə arasında tarixdə ilk dəfə sərhəd direyinin quraşdırılması kimi mühüm işlərin həyata keçirilməsi də buna bariz nümunələrdir.

### Təşəbbüskar Azərbaycandır

Xüsusi vurğulayaq ki, sülh prosesinin təşəbbüskarı məhz Azərbaycan olub.

44 günlük Vətən müharibəsindən dərhal sonra Azərbaycan beş baza prinsipi əsasında Ermənistana təkmil sülh modeli təklif edib, ölkəmiz ötən dövrdə bu istiqamətdə əməli fəaliyyət göstərib. Lakin məhz İrəvanın Azərbaycan ərazilərinə iddiasından əl çəkməməsi və absurd istəklər irəli sürməsi bu müqavilənin bəndlərinin razılaşdırılmasına başlıca maneə törədirdi. Belə ki, Ermənistan çalışırdı ki, sülh sazişinə dırnaqarası "Dağlıq Qarabağ" məsələsini daxil etsin.

Forumda məhz sözügedən məqama da toxunan dövlətimizin başçısı söylədi ki, bizim üçün tamamilə qəbuledilməz idi, çünki dırnaqarası "Dağlıq Qarabağ" Azərbaycanın Qarabağ regionu olub və olacaq, bu, Azərbaycanın daxili məsələsidir: "Bu, irəliləyişə nail ola bilməməyimizin başlıca səbəbi idi".

Cənubi Qafqazda daimi münaqişə ocağının olmasına maraq göstərən Qərb dairələrinin Ermənistana siyasi, hərbi dəstək vermələri bu ölkəni torpaq iştahasına salır və o, nəinki sülh müqaviləsini imzalamaqdan yayınır, eləcə də revanşa hazırlaşırdı. Bu regionu koloniyasına çevirmək istəyən Fransa Qərbdəki anti-Azərbaycan şəbəkəsinə başçılıq edir, siyasi təxribatları ilə sülh prosesinə maneçilik törədir, açıq şəkildə separatizmə dəstək verirdi. Xarici havadarlarına güvənən Ermənistan isə rəsmi səviyyədə Qarabağın Azərbaycan ərazisi olduğunu etiraf etməsinə baxmayaraq, imzası ilə bunu təsdiqləmək istəmirdi. Ta ki, 2023-cü ilin sentyabrına - Azərbaycanın antiterror tədbirləri həyata keçirdiyi zamana qədər.

### Vasitəçilərə ehtiyac yoxdur

Qarabağda separatizmin kökünün birdəfəlik kəsilməsi bölgədə barışın əldə olunmasına da tarixi fürsət yaratdı. Amma Ermənistan tərəfinin iki ay ərzində Bakının saziş layihəsi ilə bağlı şərhlərinə cavab verməməsi danışıqlara növbəti problem yaratdı.

Qeyd edək ki, buna qədər iki ölkə bir neçə dəfə saziş layihəsi ilə bağlı şərhlərin mübadiləsini həyata keçirmişdi. Halbuki sülh müqaviləsinin imzalanması ilk növbədə Ermənistana vacibdir və yalnız bu halda dalan ölkə olmaqdan qurtula bilər. Proseslərin gedişi və bölgədə baş verən hadisələr də İrəvanın sülhdən başqa çıxış yolu olmadığını diktə edirdi.

Görünür, elə Ermənistan hökuməti də başda Fransa olmaqla, bəzi qərəzli ölkələr kimi pis məsləhətçilərinə qulaq asmaqla deyil, yaxın qonşusu və sülh təşəbbüskarı Azərbaycanla danışıqlar aparmaqla sözün əsl mənasında xeyir tapacağını gec də olsa anlayıb. Beləliklə, danışıqlar bu yaxınlarda bərpa olunub və bununla mahiyyət etibarilə real danışıqlara da yaxınlaşılıb.

4 qeyri-anklav kəndin qaytarılması ilə bağlı iki ölkə arasında əldə olunmuş razılıq delimitasiya istiqamətində atılan ilk addımdır və delimitasiyanın məhz bu istiqamətdən başlaması Azərbaycanın təkidi ilə olub. Tərəflər razılaşıblar ki, delimitasiya prosesində 1991-ci ilin Alma-Ata Bəyannaməsinə əsaslanacaqlar.

Razılaşmadan dərhal sonra ard-arda gələn açıqlamalar göstərdi ki, problemin bu yöndə həlli beynəlxalq ictimaiyyət tərəfindən də alqışlanır və bu, sülh prosesində mühüm addım kimi dəyərləndirilir.

Ermənistan ilə Azərbaycan arasında ikitərəfli danışıqların aparılması, razılaşmalar əldə edilməsi daha bir məsələni də ortaya qoydu ki, bu prosesdə kənar vasitəçilərə heç bir ehtiyac yoxdur. Əksinə, vasitəçi kimi sülh prosesində iştiraka can atan bəzi qərəzli ölkələrin sülhə real maneə olduğu da faktdır.

Xatırladaq ki, iki ölkənin xarici işlər nazirlərinin növbəti görüşünün Qazaxıstanda baş tutması planlaşdırılır və bununla bağlı Bakı artıq öz razılığını bildirib. Ancaq burada söhbət hər hansı vasitəçilikdən getmir.

Tədbirdə bu məqama xüsusi vurğu edən dövlətimizin başçısı söylədi ki, bu gün sərhədimizdə baş verənlər onu nümayiş etdirir ki, bizimlə heç kəsin işi olmadığı, bu vəziyyətin kiminsə siyasi ambisiyaları naminə istifadə edilmədiyi halda biz gec-tez razılığa gələ bilərik.

İlham ƏLİYEV: "Biz razılaşmaya heç vaxt bu qədər yaxın olmamışdıq"

Göründüyü kimi, proseslərin hazırkı inkişafı iki ölkə arasında barış əldə olunmasını, normallaşmanı daha da sürətləndirir. Bu isə mühüm və tarixi məqamdır. Nəhayət ki, Cənubi Qafqazda müharibə planları cızılmır, sülh müqaviləsi ilə bağlı danışıqlar aparılır. Problemlərin çözümü silah yox, sözlərlə aranır.

"COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda Prezident İlham Əliyev də hesab etdiyini söylədi ki, biz razılaşmaya ola bilsin heç vaxt olmadığı qədər yaxınıq. Çünki işğal dövründə biz razılaşmaya heç vaxt bu qədər yaxın olmamışdıq. İndi sülh razılaşmasının necə olmalı olduğuna dair bizdə ümumi anlayış var. Biz, sadəcə, təfərrüatlar üzərində çalışmalıyıq. Lakin əlbəttə ki, hər iki tərəfə vaxt lazımdır, çünki sülh müqaviləsi imzalandığı təqdirdə bu, hər iki ölkə üçün tarixi razılaşma olacaqdır: "Buna görə hər bir söz, hər bir nöqtə, hər bir paraqraf vacibdir. Lakin vacib olan odur ki, hər iki tərəfin bunu etmək üçün siyasi iradəsi var".

Sülh üçün tarixi şərait tam yetişib. Ermənistan bundan istifadə etməzsə, yalnız özünə zərbə vuracaq.

# Daxili İşlər Nazirliyində Kollegiya iclası keçirilib

Aprelin 19-da Daxili İşlər Nazirliyində informasiya texnologiyalarından istifadə etməklə törədilən cinayətlərlə mübarizədə, cinayət xarakterli müraciətlərə baxılması, cinayətlərin kriminalistik üsul və vasitələrlə açılması sahəsində işlərin vəziyyətinə həsr olunmuş Kollegiya iclası keçirilib.

İclası giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov bildirib ki, ictimai asayişin və təhlükəsizliyin qorunması sahəsində fəaliyyət digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə 2024-cü ilin I rübündə də məqsədyönlü şəkildə davam etdirilib.

Daxili İşlər Nazirliyi və prokurorluq üzrə qeydə alınmış 8.930 cinayətin 85 faizi açılıb. Ağır və xüsusilə ağır cinayətlər, qəsdən sağlamlığa ağır zərər vurmalar, mülkiyyət əleyhinə olanlar, o cümlədən oğurluqlar, soyğunçuluqlar, quldurluqlar, informasiya texnologiyalarından istifadə edilməklə törədilənlər, habelə qrup halında və ailə münaqişəsi zəminində baş verən, əvvəllər məhkum olunmuşlar və yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən hüquqazidd əməllər 2023-cü ilin 3 ayı ilə müqayisədə azalıb.

Qeyri-aşkar şəraitdə baş verən cinayətlərin, şəxsiyyət əleyhinə olanların, xuliqanlıqların, mülkiyyət əleyhinə kriminal əməllərin, onlardan oğurluqların, dələduzluqların, soyğunçuluqların, tədə-qorxu ilə tələb etmələrin açılması yaxşılaşıb. Qeyri-leqal dövriyyədən 1 ton



329 kiloqram narkotik vasitə çıxarılıb və bu cinayətlərə görə 1.572 nəfər məsuliyyətə cəlb edilib. Yol-nəqliyyat hadisələrinin sayında 12,2 faiz, qəzalarda həlak olanların sayında 14 nəfər, xəsarət alanların sayında 39 nəfər azalma qeydə alınıb.

Vətəndaş məmnunluğunun təmin olunmasının, o cümlədən müraciətlərə baxılmasının vəziyyətinə toxunan nazir bu istiqamətlərdə nəticələrin müsbət olduğunu, cinayət yolu ilə şəxslərə vurulmuş 77.668.996 manat maddi ziyanın 80 faizinin istintaq prosesində ödənildiyini nəzərə çatdırıb.

Daha sonra gündəlikdəki məsələlərlə bağlı məruzələr dinlənilib.

Müzakirə olunan məsələlər ətrafında baş idarə, idarə və ərazi polis orqanlarının rəisləri çıxış edərək görülmüş işlər, əldə olunmuş nəticələr, mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə həyata keçirilən tədbirlər barədə çıxış ediblər.

Kollegiya iclasına yekun vuran nazir general-polkovnik V.Eyvazov qanunla müəyyən edilmiş vəzifələrin və qarşıya qoyulan tapşırıqların cari ilin birinci rübündə bütövlükdə layiqincə icra olunduğunu, cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində əldə olunan müsbət nəticələrin inkişaf etdirildiyini, şəxsi heyətin xidməti vəzifələri böyük əzmlə yerinə yetirdiyini diqqətə çatdırıb.

Vətəndaş məmnunluğunun təmin edilməsinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi əsas vəzifələrdən olduğunu xatırladan nazir cinayətlərin qarşısının alınması, açılması, hüquqazidd əməllər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi, müraciətlərə baxılması və qəbul işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib.

O, cinayətkarlıqla mübarizədə, xüsusən informasiya texnologiyalarından istifadə edilməklə törədilən cinayətlərin açılması və belə hüquqazidd əməllərə yol verən şəxslərin müəyyən edilib məsuliyyətə cəlb olunmaları işinin daha da gücləndirilməsi üçün əməliyyat-texniki tədbirlərin dairəsinin genişləndirilməsinin vacibliyini diqqətə çatdırıb.



Bu sahədə təbliğat işinin effektivliyinin artırılması, müasir dövrün tələblərinə cavab verən maarifləndirmə materiallarının hazırlanaraq ölkə əhalisinə çatdırılması istiqamətində əlavə tədbirlərin görülməsi, hər bir ərazi polis orqanında cinayət xarakterli müraciətlərin həssaslıqla araşdırılması, fiziki şəxslərin qanuni mənafelərinin hüquqazidd əməllərdən etibarlı qorunmanı işinə yeni yanaşmaların tətbiqi, cinayətlərin kriminalistik üsul və vasitələrlə açılması sahəsində mütərəqqi beynəlxalq təcrübə əsasında əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsi kimi mühüm məsələlərlə bağlı daxili işlər naziri konkret tapşırıqlar verib.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 29.04.2024 16:00 Page 1



# Daxili Qoşunların Hərbi Şurasının növbəti iclası keçirilib

Aprelin 16-da Daxili Qoşunların Baş İdarəsində "Daxili Qoşunlarda hərbi intizamın vəziyyəti haqqında" Hərbi Şuranın iclası keçirilib.

İclası giriş sözü ilə açan Hərbi Şuranın sədri, daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov qeyd edib ki, Daxili Qoşunlarda hərbi intizamın vəziyyəti, tərbiyə işinin təşkili, qanunçuluğun möhkəmləndirilməsi üzrə fəaliyyətin nəticələri və qarşıda duran vəzifələr döyüş hazırlığının artırılmasında əsas aspektlərdən biridir.




Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Silahlı Qüvvələrin inkişafı uğurla davam etdirilmiş, müstəqil Azərbaycan Respublikası dövlət quruculuğu istiqamətində əldə edilən nailiyyətləri ilə regionun aparıcı dövlətinə çevrilmişdir.

General-leytenant Şahin Məmmədov iclasın gündəliyini elan etdikdən sonra Daxili Qoşunlarda hərbi intizamın vəziyyəti barədə daxili qoşunlar komandanının müavini - şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov məruzə ilə çıxış edib.

Məruzədə bildirilib ki, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti hər zaman olduğu kimi dövlətə, dövlətçiliyə sadiq qalaraq respublikada, o cümlədən işğaldan azad olunmuş ərazilərdə ictimai asayişin və daxili təhlükəsizliyin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə, bütövlükdə qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqlarının icrasında yüksək hərbi intizam və peşəkarlıq nümayiş etdirib.

Qeyd edilib ki, şəxsi heyətlə tərbiyə işi qanunçuluğun və hərbi intizamın möhkəmlənməsinə, qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsinə, hərbi qulluqçuların Azərbaycan Respublikasının qanunlarına sözsüz əməl edilməsi ruhunda tərbiyə olunmasına və sağlam mənəvi-psixoloji mühitin yaradılmasına yönəlib. Bu məqsədlə hərbi hissələrdə keçirilən tərbiyə işi tədbirləri nəzarətə götürülüb, hərbi intizamın vəziyyəti üzrə təhlillər aparılıb, fəaliyyət istiqamətləri üzrə müvafiq tövsiyələr verilib.

Həmçinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Vətən müharibəsində qazandığı tarixi qələbənin əhəmiyyəti və antiterror tədbirlərinin mahiyyəti şəxsi heyət arasında geniş təbliğ edilib.

Bununla yanaşı, Daxili Qoşunlarda cinayət, hadisə və kobud intizam pozuntularına yol verilməməsi, neqativ halların vaxtında qarşısının alınması məqsədilə müvafiq göstərişlərin hazırlanaraq hərbi hissələrə göndərildiyi və icrasının nəzarətdə saxlanıldığı vurğulanıb.

Məruzəçi əlavə olaraq bildirib ki, respublikada baş verən ictimai-siyasi hadisələr, dövlət səviyyəli tədbirlər daim diqqət mərkəzində saxlanılıb, Ümummilli Lider Heydər Əliyevin azərbaycançılıq ideologiyasının və zəngin siyasi irsinin öyrənilməsi təmin edilib, mühüm tədbirlərdə və yekunlarda dövlət başçısının çıxışları ictimai-siyasi hazırlıq məşğələlərində və digər tərbiyə işi tədbirlərində geniş istifadə olunub.

Məruzədə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə təsdiq edilmiş aidiyyəti dövlət proqramlarının tələblərindən irəli gələn vəzifələrin yerinə yetirilməsi ilə bağlı şəxsi heyət arasında maarifləndirmə işinin aparıldığı, gənclərin mənəvi-psixoloji durumunun yüksəldilməsi, sağlam həyat tərzi keçirmələri, narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı barədə təbliğat işinin gücləndirildiyi bildirilib.



Çıxışının sonunda general-mayor İ.Muradov Daxili Qoşunların şəxsi heyətinin fəaliyyət istiqamətləri üzrə nailiyyətlərin əldə olunması və mövcud nöqsanların aradan qaldırılmasına qətiyyətlə çalışacağına, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə daha məsuliyyətlə yanaşacağına əminliyini ifadə edib.

Daha sonra mövcud vəziyyət, fəaliyyətdə qazanılmış nailiyyətlər, eləcə də yol verilmiş nöqsan və çatışmazlıqların yaranma səbəbləri, onların aradan qaldırılması istiqamətində görülən işlər barədə Baş İdarənin bir sıra idarə, şöbə rəisləri, hərbi hissə komandirlərinin və onların tərbiyə işləri üzrə müavinlərinin hesabat-çıxışları dinlənilib.

İclasa yekun vuran general-leytenant Ş.Məmmədov aidiyyəti vəzifəli şəxslərə tapşırıqlar verərək, Daxili Qoşunların şəxsi heyətinin bundan sonra da xalqa və dövlətə sadiqliyini nümayiş etdirərək ləyaqətlə xidmət edəcəyinə, həmçinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısına cavab olaraq, daxili işlər nazirinin əmr və göstərişlərindən irəli gələn vəzifələri layiqincə yerinə yetirəcəyinə, polis orqanlarının əməkdaşları ilə birgə ölkədə ictimai asayişin və sabitliyin keşiyində mətinliklə dayanacağına əminliyini ifadə edib, hərbi qulluqçulara fəaliyyətlərində uğurlar arzulayıb.

**Mətbuat xidməti**

# ALİ HƏRBİ MƏKTƏBDƏ DİNİ MAARİFLƏNDİRMƏ MÖVZUSUNDA SEMİNAR TƏŞKİL OLUNUB

Aprelin 26-da Daxili Qoşunların Ali Hərbi Məktəbində "Radikal dini cərəyanların milli təhlükəsizliyə təhdidi" mövzusunda seminar keçirilib. Seminarda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Siyavuş Heydərov, daxili qoşunların baş idarəsinin şəxsi heyət üzrə idarə rəisinin müavini - mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Şahin Bəylərov iştirak ediblər.



Şəxsi heyətin iştirakı ilə keçirilən seminarı giriş sözü ilə açan Ali Hərbi Məktəbin rəisinin tərbiyə işləri üzrə müavini polkovnik Nəriman İsayev Ali Hərbi Məktəbdə və hərbi hissələrdə bu cür tədbirlərin keçirilməsinin əhəmiyyətindən danışıb. Bildirib ki, Azərbaycan ictimai-siyasi sabitliyinə görə nümunəvi dövlətlərdəndir və qazandığımız bu uğurları həzm edə bilməyən dairələr zaman-zaman din pərdəsi altında öz ideologiyalarını burada yaymağa, cəmiyyətimizdə dini zəmində ayrı-seçkilik toxumları səpməyə çalışırlar. Ancaq onların bu cəhdləri hər zaman iflasa uğrayıb, çünki Azərbaycan xalqı dinin bölücü deyil, birləşdirici amil olduğunu yaxşı bilir və onu özünün mənəvi dəyəri kimi qoruyur.



Sonra S.Heydərov kursantların qarşısında çıxış edərək milli-mənəvi dəyərlərin hər bir cəmiyyət üçün birləşdirici amil olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycan dövləti bütün dinlərin nümayəndələrinin hüquq bərabərliyini təmin edir. Müxtəlif dairələrin Azərbaycanda milli-dini zəmində ayrı-seçkilik yaratmaq cəhdlərinin hər zaman olduğunu deyən məruzəçi Vətən müharibəsinin davam etdiyi günlərdə də bunun müşahidə edildiyini vurğulayıb. Ancaq Azərbaycan xalqı öz müdrikliyini bir daha nümayiş etdirərək sahib olduğu vəhdətin pozulmasına imkan verməyib və şanlı ordusuna, Müzəffər Ali Baş Komandanına güvənib, bir yumruq kimi birləşərək erməni faşizmini məhv edib.

Seminarın gedişatında, həmçinin Vətənə xidmətin ülviliyindən danışan məruzəçi bu şərəfli missiyanın daşıyıcıları qarşısında çıxış etməkdən məmnunluğunu ifadə edib. Bildirib ki, Azərbaycan xalqı hər zaman tolerantlığı ilə seçilib, bütün xalqların, dinlərin nümayəndələrinə qucaq açıb, yardım göstərib. Ancaq təəssüf ki, özü hər zaman haqsızlığa, ədalətsizliyə, soyqırımlara məruz qalıb. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandanı İlham Əliyevin də dediyi kimi, torpaqlarımız işğalda ikən erməni faşizminə qarşı beynəlxalq müstəvidə heç bir addımın atılmaması bir daha sübut etdi ki, ikili standartlarla idarə olunan müasir dünyada haqlı olmaq hələ hər şey demək deyil, haqqını almaq üçün mütləq güclü olmalısan. 44 günlük Vətən müharibəsində qazanılan Böyük Zəfər, ərazi bütövlüyümüzün bərpası çoxlarına dərs oldu və göstərdi ki, Azərbaycan xalqı öz müqəddəratını özü müəyyən edir, qarşısında duran bütün hədəfləri dəf etməyə qadirdir.

Sonda kursantlara "Şəhadət" bədii filmi nümayiş etdirilib.

**kapitan Nigar Ağayeva**

# HƏRBİ HİSSƏDƏ XÜSUSİ TƏYİNATLILARIN HAZIRLIĞI YOXLANILIB

Daxili qoşunlar komandanının 1-ci müavini - qərargah rəisi tərəfindən təsdiq edilmiş müvafiq xidməti tapşırığa əsasən, aprel ayının 16-dan 20-dək 25033 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin və ayrı yerləşən patrul taborunun xüsusi təyinatlı qrupunun döyüş hazırlığı və döyüş təliminin vəziyyəti yoxlanılıb. Bu barədə məlumat verən daxili qoşunların baş idarəsinin qərargahının əməliyyat və döyüş hazırlığı idarəsinin döyüş hazırlığı şöbəsinin xüsusi təyinatlı bölmələrin hazırlığı üzrə baş zabiti polkovnik-leytenant Orxan Bədirxanov bildirib ki, yoxlama müddətində komandir heyətinin idarəetmə və liderlik qabiliyyəti, şəxsi heyətin atəş, fiziki və xüsusi taktiki hazırlığının səviyyəsi dərindən öyrənilib, fövqəladə hallar zamanı hərbi hissənin fəaliyyət planına uyğun olaraq xüsusi təyinatlı bölmələrə həvalə olunmuş tapşırıqların yerinə yetirilməsi üzrə dəstə komandanlığının, qrup və yarımqrup komandirlərinin, həmçinin şəxsi heyətin bilik və bacarığına əsas diqqət yetirilib. Yoxlama müddətində xüsusi təyinatlı bölmələrdə idarəetmənin vəziyyəti, döyüş təliminin planlaşdırılması və müvafiq tədris proqramının icrası, bölmələrin şəxsi heyətinin xüsusi təlim atış çalışmaları üzrə praktiki atəş qabiliyyəti, fiziki hazırlığı, həmlə-desant və hərbi dağçılıq hazırlığı, eləcə də hərbi topoqrafiya və xüsusi taktiki hazırlıq üzrə bilik və bacarığı yoxlanılıb, qəflətən qarşıya çıxan tapşırıqların yerinə yetirilməsi zamanı düzgün, çevik və mütəşəkkil fəaliyyətin təşkili üzrə dəstə komandirinə praktiki köməklik göstərilib.



Polkovnik-leytenant O.Bədirxanov onu da vurğulayıb ki, yoxlama zamanı təlim məqsədilə xüsusi təyinatlı dəstənin müxtəlif təlim həyəcan siqnalları ilə hazırlığı, çevikliyi, silahlanması, təchizatı, avtomobil və zirehli texnikaların hərəkət qabiliyyəti, komandir heyətinin qərar qəbuletmə bacarığı yoxlanılıb. Müəyyən olunub ki, dəstə qarşıda duran tapşırıqların icrasına hazırdır. Burada nizam-intizam, daxili qayda qorunub saxlanılır.

Dəstənin silahlanmasında mövcud olan silah-sursat, müşahidə və optik cihazların vəziyyəti də yoxlanılarkən müəyyən olunub ki, silahlar sazdır, normal döyüş vəziyyətinə gətirilib, xüsusi nişangah və cihazlar təyinatına uyğun olaraq istifadə edilir. Dəstəyə rəhbərlik edən dəstə komandiri mayor Cavid Tağıyevin iş üslubu və idarəçilik fəaliyyəti qənaətbəxşdir. Dəstə komandanlığının şəxsi heyət arasında nüfuzu var, dəstədə tabelik münasibətlərinə əməl edilir.



Dəstədə 29 nəfər zoğalı beret daşıma hüququna sahib və 9 nəfər xüsusi hazırlıq kursu keçmiş hərbi qulluqçu vardır. Qrup və yarımqrup komandirlərinin tam olaraq "Komando təməl" xüsusi hazırlıq kurslarına göndərilməsi məqsədəuyğundur.

Sonda dəstənin hərbi qulluqçuları ilə "Dövlətə və dövlətçiliyə sadiqlik, funksional vəzifə borclarının yerinə yetirilməsində hərbi qulluqçuların məsuliyyəti" mövzusunda söhbətlər aparılıb, komandir heyəti ilə yoxlamanın yekunlarına dair xidməti müşavirə keçirilib, aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün konkret tapşırıqlar və tövsiyələr verilib.

**kapitan Nigar Ağayeva**

# DÖYÜŞ HAZIRLIĞINI YÜKSƏK SƏVİYYƏDƏ QORUYUB SAXLAYAN DƏSTƏ

99713 saylı hərbi hissənin xidmətdə nailiyyətləri, əzmkarlığı ilə fərqlənən xüsusi vasitələrin tətbiqi dəstəsi 2023-cü ilin ümumi inspeksiya yoxlamasının nəticələrinə görə hərbi hissənin bölmələri arasında qabaqcıl yer qazanıb.



Dəstə komandiri polkovnik-leytenant Ramin Kərimov dəstədə yüksək nizam-intizamın əldə olunması üçün şəxsi heyətə qarşı tələbkarlığın, gündəlik xidməti-döyüş fəaliyyətinin nəzarətdə saxlanılmasının vacibliyini vurğuladı. O, xidmətini daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil etdiyini nəzərimizə çatdıraraq, keçirilən praktiki və nəzəri məşğələlərin keyfiyyəti, tam fərdi qaydada mənimsənilməsinin müsbət nailiyyətlərin, qabaqcıl təcrübənin əldə olunmasına təkan verdiyini sözlərinə əlavə etdi. Belə ki, gündəlik olaraq şəxsi heyətin tam tərkibdə xidmətdə olmasının yoxlanılması, tərtib edilən məşğələ cədvəlinə əsasən, məşğələlərin vaxtında keçirilməsi, hərbi qulluqçuların məşğələyə uyğun ekipirovkası və silahlanması təmin olunur. Komandir heyətilə məşğələlərə xüsusi diqqət yetirilir. Onların şəxsi heyətlə iş metodu və üsulları müəyyənləşdirilir, müvafiq tapşırıqlar verilir. Şəxsi heyətin nəzəri biliklərini və praktiki fəaliyyətini şəxsən yoxlayan komandir daxili qayda-qanuna ciddi riayət olunmasını nəzarətdə saxlayır. Tabeliyində olan hərbi qulluqçulardan təhkim olunmuş silah və xüsusi vasitələrin təyinatını, döyüş xüsusiyyətlərini bilmələrini, onlardan istifadə zamanı təhlükəsizlik qaydalarına əməl etmələrini tələb edir.



Hərbi qulluqçuların döyüş və ictimai-siyasi hazırlığına, hərbi intizamına, xüsusi vasitə və silahların, texnikanın vəziyyətinə daim nəzarət etdiyini diqqətə çatdıran polkovnik-leytenant R.Kərimov, həmçinin söhbət əsnasında xidmətin düzgün təşkilinin kompleks iş olduğunu söylədi.

Şəxsi heyət arasında sağlam mənəvi-psixoloji durumun formalaşması və yoldaşlıq münasibətlərinin düzgün istiqamətdə inkişafı, eləcə də yeni gəlmiş hərbi qulluqçuların kollektivə uyğunlaşmaları da önəm verilən əsas məsələlərdir. Bu istiqamətdə xüsusi vasitələrin tətbiqi dəstəsinin komandirinin tərbiyə işləri üzrə müavini mayor Vüqar Piriyevin fəaliyyəti müsbət xarakterizə edilir.

Komandir dəstənin ictimai həyatında, keçirilən təlim və məşğələlərdə fəallıq nümayiş etdirən, həmçinin funksional vəzifələrinin öhdəsindən layiqincə gələn, digər hərbi qulluqçulara da nümunə olan kapitan Zahir Sultanov, gizirlər Niyaməddin Ağazadə, Arzuman Əsgərov, çavuş Namiq Mütəllimov və kiçik çavuş Dəşqın Hüseynovun adlarını çəkdi.

**kapitan Şahin Cəfərzadə**

*Şəhidlərimiz*

# VƏTƏN SEVGİSİ VƏ DÖYÜŞ RUHU İLƏ DÜŞMƏNƏ SİNƏ GƏRDİ...

Ermənistanın qəsbkar siyasəti və hərbi təcavüzü nəticəsində ölkəmizin ərazisinin iyirmi faizi uzun illər işğal altında qalıb. Düşmən yurdlarımızı viran qoyub, sərvətlərimizi talayıb, mədəni irs nümunələrimizi məhv edib. İşğalçı dövlət soydaşlarımıza qarşı soyqırım və etnik təmizləmə həyata keçirib, bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Azğınlaşmış və qanımıza susamış ermənilər bizimlə sülh içində yaşamağı deyil, düşmənçilik yolunu seçiblər, torpaqlarımıza göz dikərək müharibənin səbəbkarına çevriliblər. Bu məsələdə xarici havadarları onlara ciddi dəstək veriblər.

Birinci Qarabağ müharibəsi zamanı bir sıra şəhər və rayonlarımızın itirilməsi dövlətimizi ağır duruma salıb, lakin xalqımız heç vaxt bununla barışmayıb, döyüş ruhunu, qisas hissini qoruyub saxlayıb. Aprel döyüşləri, 44 günlük Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində erməni işğalçıları darmadağın edilib. "Dəmir yumruq" sayəsində respublikamızın Şərqi Zəngəzur, habelə Qarabağ bölgələrində suverenliyimiz və ərazi bütövlüyümüz tam bərpa olunub.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının antiterror tədbirlərində şəhid olan 12 nəfər hərbi qulluqçusu 17072 saylı hərbi hissədə xidmət edib. Onlardan biri də baş çavuş Hüseynov Ramin Rövşən oğludur. Şəhidin mənalı ömür yolu barədə ailəsindən, silahdaşlarından və müxtəlif sənədli mənbələrdən gərəkli məlumatları topladım. O,1987-ci il iyunun 1-də Qazax şəhərində doğulub. Bu şəhərdə böyüyüb, doğmaları ilə unudulmaz günlər yaşayıb. Rövşən Hüseynov və Gülbəniz Əmiraslanovanın ilk övladı idi, bacısı Şəfəq xanım qardaşından bir yaş kiçikdir. 1998-ci ildə atası xəstəlik səbəbindən dünyasını dəyişəndə Raminin 11 yaşı vardı. Anası səhhəti ilə əlaqədar vaxtından əvvəl təqaüdə çıxıb. Atasızlığın acısı həyatı boyu onun qəlb yarası olub, yaşıdlarından daha erkən ailə qayğılarının məsuliyyətini öz üzərinə götürüb.

Ailə üzvlərinin sözlərinə görə, Ramin dürüst, vicdanlı, mehriban, istiqanlı olması, qohumlarına, qonşularına, dostlarına öz köməyini əsirgəməməsi, zəhmətkeşliyi, böyüklərə hörməti ilə fərqlənib.

Qazax şəhərində yerləşən şəhid Namiq Vəliyev adına 5 saylı tam orta məktəbdə təhsil alıb. Müəllimləri Raminə vətənpərvərlik əqidəsinin aşılanmasında vacib rol oynayıblar. Biliklərə yiyələnmək üçün çalışqanlıq göstərib. Məktəbli olduğu vaxtdan hərbçi və polis peşələrinə rəğbət bəsləyib. Fiziki hazırlığına xüsusi diqqət yetirib, idmanın güləş və karate növlərini bəyənib, bir müddət məşqlərə gedib.

Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollananadək ayrı-ayrı sahələrdə



işləyib, ailənin dolanışığı üçün zəhmətə qatlaşıb.

2005-ci ilin iyul ayında Ramin müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin Mingəçevirdə yerləşən "N" saylı hərbi hissəsində xidmət keçib. Hərbi xidmət borcunu vicdanla yerinə yetirərək 2007-ci ilin yanvar ayında ordu sıralarından ehtiyata buraxılıb.

Mülki işlərdə əmək fəaliyyətini bir necə il davam etdirib. Ancaq hərbi xidmətə qəbul olunmaq barədə düşünüb, nəhayət, bununla bağlı qəti qərar verib. DİN-in Daxili Qoşunlarının komandanlığına müraciəti müsbət cavablandırılıb. Beləliklə, 2013-cü ilin iyun ayından etibarən Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Öncə 25033 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun baş atıcısı vəzifəsinə təyin edilib. 2014-cü ilin iyun ayında isə 17072 saylı hərbi hissəyə keçirilib. Xüsusi vasitələrin tətbiqi dəstəsinin manevr qrupunun baş atıcısı, xüsusi vasitələrin tətbiqi qrupunun operatoru (TOMA) və post-patrul xidməti bölməsinin operatoru (TOMA) vəzifələrində xidmət edib. Komandanlığın etimadını layiqincə doğruldub. Funksional vəzifələrinə və qarşıya qoyulan tapşırıqlara məsuliyyətlə yanaşdığına görə komandirləri tərəfindən dəfələrlə mükafatlandırılıb. Hərbi xidməti dövründə silahdaşlarının hörmətini qazanıb, öz peşəsinin şərəfini qoruyub, peşəkarlıq keyfiyyətlərinə yiyələnib, praktiki təcrübəsi ilə seçilib. Təlim və məşğələlərdə peşə məharətini göstərib, biliklərini artırmağa, habelə bacarıqlarını təkmilləşdirməyə çalışıb.

Koronavirus pandemiyası ilə əlaqədar karantin rejiminin təmin edilməsi, eləcə də bəzi kütləvi tədbirlərdə ictimai qaydanın və təhlükəsizliyin qorunması üzrə xidmətlərə cəlb olunub. Üzərinə düşən tapşırıqların icrasında heç bir nöqsana yol verməyib, vətəndaşlarla nəzakətlə davranıb.

2020-ci il sentyabrın 27-dən noyabrın 9-dək davam edən Vətən müharibəsi dövründə Ramin Gəncə şəhəri və Gədəbəy rayonunda komendant postlarında xidmət aparıb. Müharibə gerçəkliyində arxa cəbhədəki şəhər və rayonların təhlükəsizliyinin təmin edilməsi də mühüm vəzifə olub. Bu baxımdan o və silahdaşları təhkim olunan ərazidə təhlükəsizliyin keşiyində qətiyyətlə dayanıblar. Həmçinin həmin günlərdə dəstədə zərurət olarsa, ön cəbhəyə göndərilmək üçün lazımi hazırlıqlar da görülüb.

Vətən müharibəsi zamanı erməni ordusu Gəncəni də müxtəlif raketlərlə atəşə tutub, dinc sakinlərin evləri hədəfə alınıb, onlarla vətəndaşımız bu vəhşiliyin qurbanına çevrilib. Günahsız insanların ölümü Raminin düşmənə qarşı nifrət və qəzəbini daha da gücləndirib.

Qələbə xəbərini hərbi qulluqçumuz böyük sevinc və coşqu ilə qarşılayıb. Daxili Qoşunların şəxsi heyətinin hərbi zəfərin qazanılmasında göstərdiyi mətinlik onu qürurlandırıb.

Vətən müharibəsindən sonra, ayrı-ayrı tarixlərdə Ramin işğaldan azad edilmiş Şuşa şəhərinə, Laçın, Zəngilan və Kəlbəcər rayonlarına təhlükəsizlik tədbirlərinin təmini məqsədilə qısamüddətli ezam olunub. Verilən tapşırıqların öhdəsindən bacarıqla gəlib.

Daxili işlər nazirinin 29 iyun 2022-ci il tarixli müvafiq əmri ilə baş çavuş R.Hüseynov 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə təltif olunub.

2023-cü il sentyabrın 19-dan 20-dək Qarabağ bölgəsində erməni ordusunun qalıqları və silahlı separatçılara qarşı ordumuz tərəfindən Daxili Qoşunların iştirakı ilə lokal xarakterli antiterror tədbirləri keçirilib. Antiterror tədbirlərinə polkovnik-leytenant Rəşad Hüseynovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsi də qatılıb. Sentyabrın 19-dan 20-nə keçən gecə dəstənin bir qrup şəxsi heyəti Laçın rayonunun Nağdalı kəndindən Kəlbəcər rayonunun Vəngli kəndi (hazırda bu kənd Ağdərə rayonuna daxildir) istiqamətində avtomobillərlə hərəkətə başlayıb. Öncədən müəyyən edilən hüdudlara hərəkət zamanı ermənilərin ilk hücumuna məruz qalıblar, lakin terrorçuların atəş nöqtələri susdurulub, həmin məqamda bir neçə nəfər döyüşçümüz yaralanıb. Döyüş tapşırığının icrası davam etdirilərkən Vəngli kəndinə qısa məsafə qaldıqda hərbi qulluqçularımız düşmən pusqusuna düşüblər. Yolun kənarlarından müxtəlif çaplı silahlarla atəş açan işğalçılara qarşı döyüşçülərimiz yerindəcə çevik mövqeləniblər. Onlar düşməni cavab atəşi ilə məhv etmək üçün cəsurluqla vuruşublar. İtki verən ermənilər geri çəkiliblər. Bu döyüşdə mərdliklə sinəsini sipər edən Ramin ağır yaralanaraq şəhidlik zirvəsinə ucalıb. Dəstə komandiri və bəzi döyüşçü yoldaşları da şəhadətə yüksəliblər.



17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin komandirinin müavini-qərargah rəisi kapitan Həmid Ağayev, dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Muxtar Qafarov, post-patrul xidməti bölməsinin komandirinin müavini kapitan Eltun Orucov, post-patrul xidməti bölməsinin götürmə qrupunun yarımqrup komandiri gizir Emin Göşşüyev, post-patrul xidməti bölməsinin operatoru (TOMA) gizir Dəyanət Nəsibli və xüsusi vasitələrin tətbiqi qrupunun atıcısı əsgər Nicat Mamedov antiterror tədbirlərinin iştirakçılarıdır. Onlar Raminin xidmət və döyüş yolu barədə məna ətraflı danışdılar, maraqlı məqamları bölüşdülər. Şəhidin silahdaşlarının sözlərinə görə, Ramin nizam-intizamlı, öz peşəsini sevən, vətənpərvər, ləyaqətli, heç bir çətinlikdən çəkinməyən, dözümlü və iradəli, döyüş hazırlığı ilə fərqlənən, özünə qarşı tələbkar, səliqə-sahmanlı, hərbi kollektivdə yoldaşlıq münasibətlərinin möhkəmlənməsinə töhfə verən hərbi qulluqçu olub. İcraçılığı, çevikliyi həmişə vurğulanıb. Xeyirxah, etibarlı, qayğıkeş, ünsiyyətcil yoldaş kimi yaddaşlarda qalıb. Gizir E.Göşşüyevlə Ramin uşaqlıqdan dostlaşıblar, talelərinə birgə xidmət etmək və döyüş sınağı da yazılıb. Dostunun ölümü onu dərindən sarsıdıb. Müsahiblərim söylədilər ki, Ramin döyüş tapşırığını son nəfəsinədək qorxmadan və qətiyyətlə yerinə yetirib.

1 saylı Gəncə regional "Asan xidmət" mərkəzi tərəfindən verilən 6 oktyabr 2023-cü il tarixli ölüm haqqında şəhadətnamədə Raminin 20 sentyabr 2023-cü ildə Kəlbəcər rayonunda hərbi əməliyyat nəticəsində digər növ partlayışlarla və ya qəlpələrlə törənmiş zədələnmələr səbəbindən şəhid olduğu faktı öz əksini tapıb.

Şəhid 2023-cü il sentyabrın 22-də Qazax rayonunun Ağköynək kəndinin qəbiristanlığında torpağa tapşırılıb.

Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2023-cü il tarixli müvafiq sərəncamları ilə baş çavuş R.Hüseynov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.

Qazax rayonu üzrə şəhidlərin ümumi siyahısında 348 nəfərin adı qeydə alınıb. Qazax şəhərindən adsız küçələrdən birinə döyüşçünün adı verilib. Oradakı Şəhidlər xiyabanında abidə kompleksinə Raminin də şəkli həkk olunub. Rayon Tarix-Diyarşünaslıq Muzeyi və Bakı Dövlət Universitetinin Qazax filialındakı şəhidlər guşəsində igidin şəkilləri var.

"Göyəzən" qəzetinin baş redaktoru Elçin İsmayılın müəllifi olduğu "Vətəni canından əziz bilənlər" kitabında Raminin ömür yolu işıqlandırılıb.

Hüseynovlar ailəsinin Qazax şəhərinin Nəriman Nərimanov qəsəbəsində yaşadığı binanın divarına xatirə lövhəsi vurulub. Qəsəbədə onun plakatları da quraşdırılıb.

Raminin Rövşən, Yusif və Gülbəniz adlı övladları yadigar qalıb. Anası Gülbəniz xanım, bacısı Şəfəq xanım və həyat yoldaşı Bahar xanım elə bir gün yoxdur ki, onu xatırlamasınlar. Sağlığında xoşbəxt ailəsi üçün hər bir fədakarlığı göstərib. Əzizlərinə Raminin yoxluğu ilə barışmaq çox çətin olsa da, təskinlikləri şəhidlərin qanlarının yerdə qalmaması, torpaqlarımızın yağı tapdağından azad edilməsidir.

Vətənə canını qurban verməsi qeyrətli oğul üçün böyük fəxarətdir!

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# "ÖZ YOLUNU HƏLƏ UŞAQLIQDAN SEÇMİŞDİ..."

Bu gün qalib ölkənin qalib vətəndaşı kimi cəmiyyətimizdə istənilən təbəqəyə mənsub, vəzifəsindən və mövqeyindən asılı olmayaraq hər bir kəs şəhid hərbi qulluqçulara, onların ailə üzvlərinə hörmətlə yanaşmalıdır. Bu mənada hərbi qulluqçu kimi bizlərin də üzərimizə düşən vəzifənin mahiyyətini dərk etmək, öz səhmimizdə əlimizdən gələni əsirgəməmək vacib şərtlərdəndir.

44 günlük Vətən müharibəsində torpaqlarımızın bütövlüyü uğrunda canını fəda edən vətənpərvər oğullarımızdan 66 nəfəri məhz Daxili Qoşunların hərbi qulluqçularıdır. Onların həyatı, şücaət, mərdlik, qəhrəmanlıq nümunələri ilə zəngin olan xidməti-döyüş fəaliyyəti gənclərə örnək göstərilir, ruhlarına dərin rəğbət və ehtiram nümayiş etdirilir.

Xüsusilə qeyd etmək lazımdır ki, Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən şəhid ailələri ilə bağlı məsələlər daim diqqət mərkəzində saxlanılır.

25033 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən ayrı yerləşən patrul taborunun komandirinin tərbiyə işləri üzrə müavini mayor Tural Qasımovun rəhbərliyi ilə bir neçə nəfər hərbi qulluqçunun Cəlilabadın Böyük Bəcrəvan kəndində yaşamış, Daxili Qoşunların şəhid hərbi qulluqçusu baş çavuş Hüseynov Fərid Fətəli oğlunun ailəsinə baş çəkməsi də göstərilən qayğının təzahürüdür.

Şəhidin ailəsi ilə tanışlıq məqsədilə onun böyüyüb, boya-başa çatdığı ata ocağında qonaq olduq. Qapıya gələn hərbi qulluqçuları Fəridin silahdaşları kimi qarşılayan ailədə olduqca səmimi bir ortam müşahidə etdik. Şəhidin valideynləri Fətəli Hüseynov və Tahirə Hüseynova bu kasıb evdə üç övlad böyüdüb, tərbiyə etdiklərini nəzərimizə



çatdırdılar. Onların böyük uşağı Fərid Hüseynov olub, ortancılı Günel Hüseynova və sonbeşiyi Murad Hüseynovdur. Atası Fətəli kişi oğlu barədə qürurla danışdı. Bildirdi ki, Fərid 1994-cü il iyunun 23-də Cəlilabadın Böyük Bəcrəvan kəndində doğulub. İlk övlad olaraq ailənin yükünü çəkməsi, uşaqlıq və yeniyetməlik illəri haqqında xatirələrini bizimlə bölüşərkən, bir ata kimi oğlunu gənc yaşda itirməsinin ağrı-acısını yaşasa da, Vətənə layiq cəsur döyüşçü olduğuna görə fəxr etdiyini söylədi.

Bizi olduqca mehriban və isti qarşılayan Tahirə ana oğlu haqda xatirələrini göz yaşları içində yanayana danışdı. Fəridin necə cəfakeş, zəhmətkeş biri olduğunu dilə gətirdi: "Mənim balam ağıllı, ailə qədri bilən uşaq olub. Uşaqların böyüyü olduğuna görə ailənin yükü onun çiyinlərində idi, hər işdə bizimlə birgə çalışırdı. Çox kasıb dolanışığımız olduğuna görə Fərid elə ağlı kəsəndən çətinlikdə olub. İnanın ki, üç övladımı balaca bir daxmada böyütmüşəm. Ali təhsili olmasa da, çox tərbiyəli, böyük sözünə qulaq asan, Allaha ibadət edən, inanclı uşaq idi. Bizə təsərrüfat işlərində həmişə köməklik edərdi. Xüsusi təyinatlı olması isə cəsurluğundan irəli gəlirdi. Öz yolunu da hələ uşaqlıqdan seçmişdi. Hərbi formaya, hərb işinə böyük marağı vardı. Əsgəri xidmətdən gəldikdən sonra bu arzusunu reallaşdırdı".

İgid oğul itirmiş Tahirə ananın mənəvi əzabları, ruhən ona digər övladlarından yaxın olan Fəridli günlərinin acılı-şirinli xatirələri göz bəbəklərində canlanırdı sanki. O ağrını, o sızını ancaq ana olan və övladını itirən kəslər başa düşər.

Şəhid anası danışır, biz çarəsizcə, səssizcə qulaq asırdıq. Kim bilir, doğma balasının körpəlik çağlarının şirin, məzəli xatirələri, yeniyetməliyinin qəribə hərəkətləri neçə dəfə gəlib keçdi gözlərinin önündən. Biz bağrı dağlı ananı səyr etdikcə Fəridin dərdlərinin bu mərd qadının üzünün cizgilərində itdiyini gördük sanki. Onu təsəlli edəcək tək sözümüz varıydı. Torpaq uğrunda ölənlər unudulmur, əbədi ölümsüzlüyə, şəhadətə ucalırlar.

Valideynləri şəhid hərbi qulluqçumuzun əsl vətənpərvər xüsusi təyinatlı olması, döyüşlər zamanı göstərdiyi şücaət, qəhrəmanlıqlar barədə döyüşçü yoldaşlarından məlumat alıblar. 2020-ci ilin sentyabr ayının 27-də erməni işğalçılarına qarşı başlayan Vətən müharibəsi minlərlə silahdaşı kimi, Fəridin də həyatının ən çətin və şərəfli sınağı olub. Müharibənin ilk günündən hərbi hissənin xüsusi təyinatlıları 16077 saylı hərbi hissəyə göndəriliblər. Sonra döyüş bölgəsində fəaliyyətə başlayıblar.

17071 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiri, Vətən müharibəsi iştirak-çısı mayor Anar Mahmudovun tabeliyində xidmət etmiş baş çavuş F.Hüseynov müsbət xarakterizə olunub. Döyüş əməliyyatları zamanı cəsurluq göstərən, bir gün olsun geri qalmayan şəhidimiz silahdaşlarına nümunə çəkilib.

Fəridin döyüş yolu oktyabrın 15-i tarixində Füzuli şəhəri istiqamətində başlayıb. 99713 saylı hərbi hissənin xüsusi təyinatlıları ilə birlikdə bu istiqamətdə təcavüzkara qarşı iki gün vuruşublar. Füzuli şəhərində yerləşən hərbi hissədə düşmənin xeyli miqdarda müxtəlif növ silah-sursatını, o cümlədən tank əleyhinə "Kornet" raketlərini, eləcə də hərbi əmlakını qənimət götürərək aidiyyəti üzrə təhvil veriblər.

Komandirinin sözlərinə görə, Füzuli rayonunun işğaldan azad edilən kəndlərinin ərazilərində axtarış, erməni diversiya-kəşfiyyat qruplarının sızmasının qarşısının alınması, ayrı-ayrı obyektlərdə gizlənmiş düşmən hərbçilərinin zərərsizləşdirilməsi üzrə fəaliyyət zamanı Fərid daim öndə olub, heç bir təhlükədən çəkinməyib.





Oktyabrın 30-dan sonra Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin xüsusi təyinatlıları ilə birlikdə Şuşa istiqamətində irəliləmək və şəhəri azad etmək barədə döyüş tapşırığı alıblar. Şuşanın yaxınlığındakı Daşaltı kəndi düşməndən təmizləndikdən sonra şəhərə həmlələr edən döyüşçülərimizi düşmən durmadan artilleriya atəşinə tutub. Noyabrın 7-də silahdaşları ilə birlikdə qəhrəmancasına vuruşan Fərid mərmi qəlpələrindən aldığı yaralardan şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikası Prezidentinin 15, 25 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə baş çavuş F.Hüseynov ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Hüseynovlar ailəsinin yaşadığı evdə şəhidin xatirə guşəsi düzəldilib. Fərid evli idi. Ölümündən sonra oğlu dünyaya gəlib, vəsiyyəti nəzərə alınaraq, adını Əbülfəz qoyublar.

Şəhidin qardaşı Murad Hüseynov Cəlilabad Rayon Polis Şöbəsinin post-patrul xidməti bölüyündə polis serjantı olaraq vətəndaşlarımızın asayişi keşiyində dayanır.

Ümumiyyətlə, müharibədən ötən dörd ilə yaxın müddət ərzində istər Daxili İşlər Nazirliyinin rəhbərliyi, istərsə də Daxili Qoşunların komandanlığı tərəfindən onlara göstərilən diqqət və qayğıdan razı qaldıqlarını söyləyən ailə üzvləri buna görə dərin minnətdarlıqlarını ifadə etdilər.

**kapitan Nigar Ağayeva**

# DAXİLİ QOŞUNLARA ÇAĞIRIŞÇILARIN QƏBULU BAŞA ÇATIB

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, aprel ayında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında çağırışçıların müddətli həqiqi hərbi xidmətə qəbulu prosesi həyata keçirilib. Sərəncamdan irəli gələn tələblərin yerinə yetirilməsi məqsədilə, daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının “Daxili Qoşunlara çağırışçıların seçilməsi, qəbulu, daşınması və sıraya daxil edilməsi ilə əlaqədar təşkilati tədbirlərin keçirilməsi haqqında” müvafiq əmri ilə çağırışçıların tibbi müayinələrinin aparılması və mənəvi-psixoloji durumlarının qiymətləndirilməsi üçün seçim qrupu yaradılıb. Daxili qoşunların baş idarəsinin qərargahının təşkilat və komplektləşdirmə şöbəsinin rəisi polkovnik Xalid Bağırov seçim qrupunun rəhbəri təyin edilib.





Bu sahədə görülən işlərin, verilən tapşırıqların icrası ilə bağlı məlumat verən 25031 saylı hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Müşfiq Xankişiyev bildirib ki, çağırışçıların xidmətə qəbulu, yerləşdirilməsi və hərbi anda gətirilənədək müvafiq qaydada hazırlanması Daxili Qoşunlar komandanlığının diqqət yetirdiyi ən vacib məsələlərdəndir.

Seçim qrupunun rəhbəri polkovnik X.Bağırov məlumat verib ki, hərbi-həkim komissiyasından keçməzdən əvvəl seçim qrupunun üzvləri tərəfindən qəbul məntəqəsinə daxil olan çağırışçılarla söhbətlər aparılıb. Söhbət zamanı onların demoqrafik məlumatları, məşğuliyyətləri, ailə vəziyyətləri, dünyagörüşü, Vətənə bağlılıqları, orduya münasibətləri, sosial vəziyyətləri, təhsilləri, bacarıq və işgüzar keyfiyyətləri ətraflı öyrənilib. Həmçinin hərbi xidmətin üstünlükləri izah edilib, dövlət və dövlətçiliyə sadiqlik, Vətənə məhəbbət kimi ən müqəddəs hisslərin, döyüş ruhunun aşılanması, mənəvi-psixoloji durumun yüksəldilməsi məqsədilə Daxili Qoşunların şərəfli döyüş yolu, qəhrəmanları haqqında məlumat verilib. Bütün məlumatlar toplandıqdan sonra hər bir çağırışçının mənəvi-psixoloji durumu haqqında rəy hazırlanıb və hərbi hissəyə təqdim olunub.

Daha sonra çağırışçılar növbə ilə həkim ekspert-nevropatoloq, həkim-terapevt, ordinator-ümumi cərrah, həkim-endokrinoloq və baş ordinator-rentgenoloq tərəfindən müayinə olunublar, ümumi bədən baxışı və sonda flüoroqrafik müayinə keçirilib.

Bununla yanaşı, çağırışçılar əşya əmlakları, eləcə də bədən ölçülərinə uyğun olan geyimlərlə təmin olunublar.

Çağırışçılar qəbul komissiyasından keçdikdən sonra hərbi hissədə bölük və taqım komandirləri tərəfindən tərbiyəvi



söhbətlər aparılıb, hərbi xidmətə adaptasiya olunmaları üçün tərbiyə işləri üzrə bölmənin təlimatçı-psixoloqu onlara məsləhətlər verib.

Hərbi hissədə çağırışçıların qəbulu və yerləşdirilməsi ilə bağlı lazım olan hər bir şəraitin mövcudluğu onu deməyə əsas verir ki, sıralarımıza xidmətə yeni qəbul olunmuş çağırışçıların Vətənə layiqli, intizamlı hərbi qulluqçu kimi formalaşması Daxili Qoşunların komandanlığının nəzarəti altında həyata keçirilib.

**kapitan Nigar Ağayeva**

NÜMUNƏVİ XİDMƏT

# ƏQİDƏSİNƏ SADİQ QALAN PEŞƏKAR ZABİT

Yüksək döyüş hazırlığının qorunub saxlanılmasında hissənin nümunəvi, ayıq-sayıq, intizamlı hərbi qulluqçularının xidməti danılmazdır. Belə hərbi qulluqçulardan biri 16075 saylı hərbi hissənin zabiti kapitan Fuad İsmayılovdur. O, 1986-cı il yanvarın 6-da Tərtər rayonunda anadan olub. 1992-2003-cü illərdə Tərtər rayon Rafiq Nuriyev adına 6 saylı tam orta məktəbdə təhsil alıb. Uşaqlıq illərində musiqiyə həvəs göstərən Fuad 7 illik Uşaq musiqi məktəbində qarmon ifaçısı ixtisası üzrə təhsil alıb. Dediyinə görə, idmanla da maraqlanıb, idmanın karate-do şotokan növü ilə həvəskar səviyyədə məşğul olub.

2004-cü ildə müddətli həqiqi hərbi xidmətə çağırılan Fuad Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin mühafizə alayında xidmət edib. Xidmətini 2006-cı ildə “çavuş” hərbi rütbəsində başa vuran gənc sonrakı həyatını hərbçi peşəsinə həsr etməyi qərara alıb. Beləliklə, 2008-ci ildə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların 67987 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində xidmətə başlayıb.

2009-cu ildə 16077 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin yarımqrup komandiri vəzifəsində xidmət edən hərbi qulluqçumuz xidmət təcrübəsini artırmaq, Daxili Qoşunların zabiti olmaq istəyilə 2012-ci ildə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbinə (hazırda Daxili Qoşunların Ali Hərbi Məktəbi) qəbul olunub. Təhsil dövründə özünü bacarıqlı, intizamlı hərbi qulluqçu kimi göstərməyi bacaran baş çavuş F.İsmayılov məktəbi



fərqlənmə diplomu ilə bitirib. İlk zabit rütbəsini 2014-cü ildə alıb.

Bu günə kimi müxtəlif vəzifələrdə xidmət edən zabitimiz hazırda hərbi hissənin qərargah rəisinin döyüş təlimi üzrə müavinidir.

16 ildir ki, qoşunların sıralarında şərəflə xidmət edən kapitan F.İsmayılov hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. O, funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşır. Peşəkar zabit kimi yüksək icraçılıq qabiliyyətinə malik olan hərbi qulluqçumuza tutduğu yolda dəyanətli olmağı və gələcək karyerasında yeni nailiyyətlər arzulayırıq.

**kapitan Nigar Ağayeva**

# HƏRBİ HİSSƏ KOMANDİRLƏRİNİN TƏRBİYƏ İŞLƏRİ ÜZRƏ MÜAVİNLƏRİ İLƏ METODİKİ-TƏLİM TOPLANIŞI KEÇİRİLİB

Aprelin 17-18-də 25031 saylı hərbi hissədə Ali Hərbi Məktəb rəisinin və hərbi hissə



komandirlərinin tərbiyə işləri üzrə müavinləri ilə metodiki-təlim toplanışı keçirilib. Toplanışa ümumilikdə 18 nəfər tərbiyə işləri üzrə müavin cəlb olunub.

Məşğələ cədvəlinə uyğun olaraq, Daxili Qoşunlarda mənəvi-psixoloji təminatın təşkili üzrə daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının əmr və direktivlərinin tələbləri çatdırılıb, hərbi hissələrdə tərbiyə işinin, hərbi intizamın və təhqiqatın vəziyyəti təhlil olunub, qeyd edilən istiqamətlər üzrə mövcud nöqsanların aradan qaldırılmasında hissə komandanlıqlarının fəaliyyəti, o cümlədən qanun pozuntularının profilaktikası və aradan qaldırılması yolları, həvəsləndirmələrin tətbiqi, cəzaların verilmə və götürülmə qaydaları barədə məlumat verilib.

Toplanışda “Daxili Qoşunlarda şəxsi heyətin milli ideologiya və azərbaycançılıq ruhunda tərbiyə edilməsi işinin təşkili” mövzusunda göstərici məşğələ keçirilib.

Metodiki-təlim toplanışında iştirak edən daxili qoşunlar komandanının müavini-şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov tərbiyə işləri üzrə müavinlərə mövcud nöqsanların aradan qaldırılması, hərbi intizamın qorunub saxlanılması barədə müvafiq tapşırıqlar verib, daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının tələb və tövsiyələrini çatdırıb.

Sonda daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının əmr və direktivlərinin tələbləri üzrə məqbullar qəbul edilib.

**Mətbuat xidməti**

# LAYİQLİ DÖYÜŞ YOLU KEÇƏN XÜSUSİ TƏYİNATLI

99713 saylı hərbi hissənin nümunəvi xidmətilə seçilən, nizam-intizamlı hərbi qulluqçularından biri olan çavuş Təbriz Məmmədov 1994-cü ilin aprel ayının 30-da Masallı rayonunun Qızılağac kəndində doğulub. 2000-2011-ci illərdə doğma kəndində yerləşən tam orta məktəbdə təhsil alıb.

2012-ci ilin aprel ayından 2013-cü ilin oktyabr ayınadək 16075 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət keçib. 2013-cü ilin oktyabr ayının 13-dən 16075 saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 2021-ci ilin may ayından xüsusi təyinatlı dəstənin xüsusi əməliyyat qrupunun xüsusi əməliyyat yarımqrupunun atıcı-snayperi vəzifəsində xidmətini davam etdirir. Hərbi hissə komandanlığı tərəfindən bacarıqlı, savadlı, vəzifələrinin icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçu kimi xarakterizə olunur.

Çavuş T.Məmmədov Vətən müharibəsi iştirakçısıdır. Belə ki, o, ön cəbhədə döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetirib.

Tutduğu vəzifənin məsuliyyətini dərk edən hərbi qulluqçumuz ona göstərilən etimadı doğrultmaq üçün hər zaman öz üzərində çalışır. Komandirlər tərəfindən verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirdiyinə görə dəfələrlə istər hərbi hissə, istərsə də dəstə komandanlıqları tərəfindən müxtəlif mükafatlara layiq görülüb. Azərbaycan



Respublikası Prezidentinin 24 iyun 2021-ci il tarixli müvafiq sərəncamları ilə 3-cü dərəcəli “Rəşadət” ordeni, “Xocavəndin azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə”, “Kəlbəcərin azad olunmasına görə”, “Cəbrayılın azad olunmasına görə” medalları, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 21 aprel 2022-ci il tarixli sərəncamı ilə “Vətən müharibəsi iştirakçısı” medalı, daxili işlər nazirinin 30 iyun 2022-ci il tarixli əmri ilə 3-cü dərəcəli “Qüsursuz xidmətə görə” medalı ilə təltif edilib.

Vəzifələrinin öhdəsindən layiqincə gələn hərbi qulluqçumuza bundan sonra da xidmətində uğurlar arzu edirik.

**kapitan Şahin Cəfərzadə**

# ALİ HƏRBİ MƏKTƏBDƏ MÜASİR TEXNOLOGİYADAN İSTİFADƏ EDİLMƏKLƏ ONLAYN DƏRS TƏŞKİL OLUNUB

Təhsil islahatlarının müvəffəqiyyətlə həyata keçirilməsində pedaqoji kadr hazırlığının keyfiyyətinin təmin edilməsi başlıca amildir. Zabit nəzəri baxımdan məlumatlı olmaqla yanaşı, praktiki bacarığı ilə yeni təlim texnologiyalarından səmərəli istifadə etməyi bacarmalıdır. Artıq bütün dünyada ali təhsilin formasında kəskin surətdə yeniliklər edilib, bu işlər hər gün daha da sürətlə davam etdirilir. “Ağıllı dərs” otaqları, kütləvi açıq onlayn kurslar, rəqəmsal texnologiyalar ali təhsili tam əhatə etməkdədir. İnnovasiyaların başgicəllənddirici sürəti tədrislə məşğul olanlar qarşısında belə bir məsələ qoyur ki, texnologiyaları təlim prosesinə necə uyğunlaşdırsınlar? Dünyanın bir çox nüfuzlu universiteti onlayn dərslərin necə təşkil olunması, ağlın, zehnin, insan təfəkkürünün bilikləri necə assimilyasiya etməsi, sürətlə dəyişən mühitdə əldə olunan təcrübənin məsafədən necə ötürülməsi sualları ətrafında müxtəlif araşdırmalar və təcrübələr keçirir. İnternet əsrində doğulmuş nəsil üçün təlim texnologiyalarından istifadə, şübhəsiz ki, onlarda bir məmnunluq hissi yaradır. Amma bizim üçün əsas olan lazımi tədris proqramının yerinə yetirilərək mənimsənilməsi, tədris prosesində qazanılmış təcrübələrin qarşılıqlı mübadiləsini aparmaqla yüksək nəticəyə nail olmaqdır.



Tədris prosesində müasir texnologiyalardan istifadə etməklə digər xüsusi təhsil müəssisələri və universitetlər arasında birgə onlayn dərslərin təşkili kursantlara təlim materiallarını yaxşı mənimsəməyə imkan verməklə yanaşı, öyrənmə prosesində müvafiq bilik sahələrinin son inkişaf və nailiyyətləri ilə tanış olmağa şərait yaradır.

Bundan əlavə, öyrənmə prosesi zamanı kursantların anlaşılmayan mövzu üzrə məsləhət almaq, bir-biri ilə operativ əlaqə saxlamaq və onları mövzu üzrə maraqlandıran sualları vermək imkanının olması bu üsulun xeyrinə olan ən güclü arqumentlərdən biridir.

Bütün bunları nəzərə alaraq aprelin 3-də Daxili İşlər Nazirliyinin Polis Akademiyasının və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin kursantları arasında hüquq üzrə fəlsəfə doktoru, dosent, polis polkovniki Rafiq Nəcəfquliyev və Ali Hərbi Məktəbin tədris şöbəsinin hüquq və sosial-iqtisad fənləri kafedrasının rəisi polkovnik Eldəniz Tağıyevin rəhbərliyi ilə inzibati hüquq fənnindən “Dövlət qulluğu və dövlət qulluqçuları” mövzusu üzrə müasir texnologiyadan istifadə etməklə virtual sinifdə onlayn formatda dərs təşkil olunub. Onlayn formatda keçirilmiş 90 dəqiqəlik dərs zamanı qeyd edilən mövzu üzrə mühazirələr dinlənilib, hər iki tərəfdən kursantları maraqlandıran suallar ətrafında fikirlər səsləndirilib, qarşılıqlı təcrübə mübadiləsi aparılıb.

Dərsin sonunda müasir dövrdə kursantları təlimdə iştirak etməyə və fəal rol oynamağa həvəsləndirmək üçün müasir texnologiyadan istifadə, onların sərbəst düşünmək, problemləri həll etmək, yeni ideyalar yaratmaq, informasiyadan, texnika və texnologiyadan düzgün istifadə vərdişlərinin formalaşdırılmasında, qabaqcıl təcrübənin bölüşülməsində onlayn dərslərin keçirilməsinin əhəmiyyəti bir daha qeyd olunub.

**Ali Hərbi Məktəbin tədris şöbəsi**

# HƏRBİ XƏBƏRLƏR

-YENİLİKLƏR-

## DCE şirkəti yeni X3 yerüstü robotunu təqdim edib

Böyük Britaniyanın “Digital Concepts Engineering” (DCE) şirkəti yeni X3 yerüstü robotunu təqdim edib. “Poliqon” xəbər verir ki, bu barədə “Digital Concepts Engineering” şirkəti “Linkedin” hesabında paylaşım edib.

Bildirilib ki, çoxlu missiya sistemini dəstəkləyən yeni X3 özündən əvvəlki X2 robotunun təkmilləşdirilmiş versiyasıdır.



Əsasən kəşfiyyat-müşahidə əməliyyatlarının yerinə yetirilməsi üçün nəzərdə tutulan X3 robotu bir sıra elektro-optik sistemlərlə təchiz olunub.

# Allah rəhmət eləsin

12318 saylı hərbi hissənin komandanlığı mayor Zamiq Məmmədova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000